# Bolkart Diamond kredit kartı üzrə kartdan istifadə tarifləri

| Əməliyyatlar | Tariflər |
|---|---|
| Kartın növü | Visa Infinite |
| Kartın qiyməti | 150 AZN<br>Qeyd: Kredit məbləği 20 000 AZN-dən çox olarsa pulsuz. |
| Kredit məbləği | min. 300 AZN – maks. 30 000 AZN |
| İllik faiz dərəcəsi | 27% |
| Nağdlaşdırma limiti | 100% |
| Güzəşt müddəti | 60 günədək*<br>*Kredit sazişində razılaşdırılmış ilk tarix aralığından sonrakı növbəti ödəniş aralığınadək olan müddət ərzində faizlərin hesablanması üzrə güzəşt müəyyən edilir. |
| Bank of Baku"nun ATM və POS vasitələrilə nağdlaşdırma | 2,5% (min. 2,5 AZN) |
| Yerli bankların ATM vasitəsi ilə nağdlaşdırma | 2,5% (min. 2,5 AZN) |
| Yerli bankların POS vasitəsi ilə nağdlaşdırma | 3% (min. 3.5 AZN) |
| Xarici bankların ATM vasitəsi ilə nağdlaşdırma | 3% (min. 3.5 AZN) |
| Xarici bankların POS vasitəsi ilə nağdlaşdırma | 3% (min. 6 AZN) |
| "Retail" əməliyyatları | 0% |
| Oyun/əyləncə mərkəzləri, o cümlədən kazinolarda aparılan "Retail" əməliyyatları | 1.5% (min. 2 AZN/USD/EUR)<br><br>Qeyd: 14.06.2024-cü il tarixindən etibarən Unique tipli əməliyyatlar (Azart/Mərc oyunları/elektron pul kisələrin balansın artırılması (yalnız ölkə xarici)/lotereya) üzrə aşağıdakı tariflər tətbiq ediləcəkdir:<br>3% (min. 3 AZN/USD/EUR) |
| Konvertasiya | Kartın valyutasından istənilən fərqli valyutada əməliyyatlar (ATM, Card to Card, online, retail və s.) müvafiq olaraq kartın hansı ödəniş sisteminə aid olmasından asılı olaraq Visa və ya Mastercard beynəlxalq ödəniş sisteminin müəyyən etdiyi məzənnə və bankdaxili ödəniş kartları üzrə müəyyən edilən alış və satış məzənnələrinə əsasən konvertasiya edilir. |
| "Card to Card" sistemi üzrə köçürmələr | 2,5% (min. 2,5 AZN)<br>Qeyd: "Card to Card" sistemi üzrə köçürülən məbləğlər və kartlar üzrə nağdlaşdırma məbləğinin cəmi kartlarda nəzərdə tutulan nağdlaşdırma limitindən çox ola bilməz! |

| | |
|---|---|
| P2P ("Card to Card" sistemi üzrə köçürmələr zamanı mədaxil edilən məbləğdən tutulan komissiya) | 0% |
| "SMS Bankçılıq" sisteminə qoşulma və dəstəklənmə (kart aktiv olma müddəti ərzində) | Mobil tətbiq  vasitəsi ilə məlumatlandırma pulsuz<br>SMS məlumatlandırma vasitəsi ilə 15 AZN. |
| "Chargeback" üzrə araşdırma aparılması | 10 AZN |
| **Qeyd:** Bankın emissiya etdiyi ödəniş kartları üzrə gündəlik maksimum 200 (iki yüz) ABŞ dolları və ya Avro məbləğində olmaqla nağdsız konvertasiya əməliyyatlarının aparılması mümkündür.<br>**Qeyd:** Müştərilərə kreditin ayrılıb-ayrılmaması qərarı onların kredit tarixçəsi, öhdəlikləri, iş yeri və rəsmi gəlirlərindən aslı olaraq müəyyən edilir. | |

## Ödəniş növü və şərtləri

**Bol opsiyası nədir?**

Bolkartla alış veriş etdikdə kreditin hissəli ödənişi müxtəlif müddət ərzində mümkündür. Bol opsiyaları müvafiq müddəti müəyyən edir.

**Bol 1 opsiyası və/ və ya Nağdlaşdırma zamanı istifadə edilmiş məbləğlər üzrə:**

Bank tərəfindən güzəşt müddəti tətbiq edilən əməliyyatlar nəticəsində yaranmış borc məbləğlərinə, tərəflər arasında Kredit Sazişi ilə ayrı qayda müəyyənləşdirilməmişdirsə, əməliyyatın icra edildiyi tarixdən başlayaraq, həmin tarixdən sonrakı ikinci ödəniş aralığınadək olan müddət ərzində faizlərin hesablanması üzrə güzəşt müəyyən edilir (güzəşt müddəti verilən əməliyyatlar barədə məlumat "www.bankofbaku.com" və/və ya "www.bolkart.az" internet sayt(lar)ında göstərilir, yaxud digər formada Müştəriyə çatdırılır). Güzəşt müddəti tətbiq edilən əməliyyat nəticəsində yaranmış və ödənilməli olan əsas borc məbləği həmin müddət ərzində tam hissədə Banka geri ödənilmədikdə (bu halda Kredit sazişi ilə razılaşdırılmış ödəniş tarixi aralığı tətbiq edilmir), qalıq məbləğə faizlər Kredit sazişi ilə razılaşdırılmış həcmdə, əməliyyatın icra edildiyi tarixdən sonrakı gündən başlayaraq hesablanmaqla, Müştəridən tələb edilir. Güzəşt müddətindən sonrakı ilk əməliyyat günündən etibarən Müştərinin, hesablanmış faiz məbləğləri ilə bərabər, yaranmış əsas borc məbləğinin Bank tərəfindən ayrı qayda nəzərdə tutulmamışdırsa, ən azı 1/24 (1/36) və ya Bank tərəfindən müəyyən edilən digər nisbətdə olan hissəsini Banka geri ödəmək öhdəliyi yaranır. Faizlərin hesablanması ümumi borc məbləği tam ödənilənədək aparılır.

**Bol  3 opsiyası üzrə:**

İstifadə edilmiş məbləğ ilk ödəniş aralığından başlayaraq müvafiq olaraq 3 ay ərzində bərabər hissələrə bölünərək ödənilməlidir.

**Bol  6 opsiyası üzrə:**

İstifadə edilmiş məbləğ ilk ödəniş aralığından başlayaraq müvafiq olaraq 6 ay ərzində bərabər hissələrə bölünərək ödənilməlidir.

**Bol  12 opsiyası üzrə:**

İstifadə edilmiş məbləğ ilk ödəniş aralığından başlayaraq müvafiq olaraq 12 ay ərzində bərabər hissələrə bölünərək ödənilməlidir.

**Bol  18 opsiyası üzrə:**

İstifadə edilmiş məbləğ ilk ödəniş aralığından başlayaraq müvafiq olaraq 18 ay ərzində bərabər hissələrə bölünərək ödənilməlidir.

**Bol 24 opsiyası üzrə:**

İstifadə edilmiş məbləğ ilk ödəniş aralığından başlayaraq müvafiq olaraq 24 ay ərzində bərabər hissələrə bölünərək ödənilməlidir.

**Ödəniş tarixləri**:**

| Kartın növü | Ödəniş tarixləri – 1-ci seçim | Ödəniş tarixləri – 2-ci seçim | Ödəniş tarixləri – 3-cü seçim |
|---|---|---|---|
| Bolkart Diamond kredit kartı | Hər ayın 1-dən 15-ə dək | Hər ayın 16-dan ayın sonunadək | - |

**Bank Müştərinin bununla bağlı sifarişini aldıqdan sonra onun icrasının mümkünlüyünü, özünün texnoloji imkanları və daxili korporativ aktları əsasında müəyyənləşdirir və sifarişin icrası mümkün olduqda, Müştərinin müraciətini təmin edir.

**Ödənilmiş məbləğin opsiyalar üzrə silinmə ardıcıllığı:**

**a)** Hesablanmış gecikdirilmə faizləri, cərimələr;

**b)** Ödəniş dövründə ödənilməli olan faizlər/komisyon haqları;

**c)** Vəsaitin nağdlaşdırılması və həmçinin 1 aylıq ödəniş üzrə nağdsız əməliyyatlar nəticəsində gecikən kredit borcunun ödənilməsi;

**d)** Hissəvi ödəniş əməliyyatları (3 , 6 , 12 və ya digər) üzrə gecikən kredit borcunun ödənilməsi;

**e)** Vəsaitin nağdlaşdırılması və həmçinin 1 aylıq ödəniş üzrə nağdsız əməliyyatlar nəticəsində yaranmış (hissələrə bölünmüş) kredit borcunun ödənilməsi mütləq olan hissəsi (1/24*, 1/36* və ya Bank tərəfindən müəyyən edilən digər nisbətdə olan hissə);

**f)** Hissəvi ödəniş əməliyyatları (3, 6, 12 və ya digər) üzrə yaranmış kredit borcları üzrə müvafiq ayın hissəvi ödənişi;

**g)** Ödəniş dövründə ödənilməsi mütləq olmayan, hesablanmış komisyon haqları və faizlərin ödənişi;

**h)** Vəsaitin nağdlaşdırılması və həmçinin 1 aylıq ödəniş üzrə nağdsız əməliyyatlar nəticəsində yaranmış (aylara bölünmüş) kredit borcları üzrə ödənilməsi mütləq olmayan hissələrin ödənişi;

**i)** Vəsaitin nağdlaşdırılması və həmçinin 1 aylıq ödəniş üzrə nağdsız əməliyyatlar nəticəsində daha əvvəlki tarixdə istifadə olunmuş və hissələrə bölünməmiş (1/24*, 1/36* və ya Bank tərəfindən müəyyən edilən digər nisbətdə olan hissəyə) və güzəşt müddəti verilən məbləğlər üzrə əsas borc məbləğlərinin ödənilməsi;

**j)** Hissəvi ödəniş əməliyyatları (3, 6, 12 və ya digər) üzrə yaranmış və razılaşdırılmış ödəniş aralığı çatmamış kredit borcları üzrə əsas məbləğin ödənilməsi.

**Bol 1 opsiyası üzrə bütün hallarda 24 bölünmə ayı*
** Nağdlaşdırma zamanı güzəşt müddəti bitən andan başlayaraq kart müqaviləsinin bitmə tarixinə 48 ay və daha çox müddət qaldıqda 48 bölünmə ayı*
** Nağdlaşdırma zamanı güzəşt müddəti bitən andan başlayaraq kart müqaviləsinin bitmə tarixinə 36 ay və daha çox, eyni zamanda 48 aydan az müddət qaldıqda 36 bölünmə ayı*
** Nağdlaşdırma zamanı güzəşt müddəti bitən andan başlayaraq kart müqaviləsinin bitmə tarixinə 24 ay və daha çox, eyni zamanda 36 aydan az müddət qaldıqda 24 bölünmə ayı*